

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 199 (21.100)

*18 oktyabr 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur rayonunun Axura kəndində müasir infrastruktur yaradılmışdır

Muxtar respublikanın digər yaşayış məntəqələrində olduğu kimi, Şərur rayonunda da quruculuq işlərinin əsasını sosial infrastrukturun müasirləşdirilməsi təşkil edir. Rayon mərkəzində və kəndlərdə istifadəyə verilən təhsil və səhiyyə müəssisələri, xidmət sahələri əhalinin rahat yaşayışına hesablanmışdır. Bütün bunları rayonun dağ və sərhəd yaşayış məntəqəsi olan Axura kəndinin timsalında da görmək mümkündür. Dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən bu yaşayış məntəqəsi aparılan quruculuq işlərindən sonra müasir görkəmə qovuşmuşdur.

## “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında energetika sahəsində səmərəli fəaliyyətlərinə görə:

Bayramov Telman Məhi oğlu
Cavadov Cabir Vəzir oğlu
Ələsgərov Vüqar Əli oğlu
Muxtarov Mübariz Tağı oğlu
Novruzov Abbas Səməd oğlu
Süleymanov Sameh Lətif oğlu
Tağıyev Hafiz Sabir oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 oktyabr 2014-cü il*

## Axura kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir



Oktyabrın 17-də Axura kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məktəbin direktoru Asəf Məmmədov çıxış edərək demişdir ki, bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərində də müasir məktəb binaları tikilərək istifadəyə verilir. Bütün bunlar ölkəmizdə həyata keçirilən uğurlu təhsil islahatlarının bəhrəsidir. Axura kənd tam orta məktəbinə də bu qayğıdan pay düşmüş, müasir məktəb binası tikilmişdir. Yaradılan şərait gələcəyimiz olan gənclərin yaxşı təhsil almasına, bilikli və vətənpərvər vətəndaş kimi yetişməsinə imkan verəcəkdir. Asəf Məmmədov bundan sonra da şagirdlərin təlim-tərbiyəsi istiqamətində səylə çalışacaqlarına, göstərilən etimadı əməli işləri ilə doğruldacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Axura kənd tam orta məktəbinin binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***“Təhsil Azərbaycanın gələcəyini təmin edən bir sistemdir”*** fikrini xatırladaraq demişdir: “Müstəqil Azərbaycanın gələcəyinin etibarlı və möhkəm olması üçün təhsil inkişaf etdirilməli, təkmilləşdirilməlidir. Bu tədbirləri həyata keçirmək üçün, ilk növbədə, müasir təhsil infrastrukturu yaradılmalıdır. Məktəblər müasir tədrisin tələblərinə uyğun avadanlıqlarla təmin olunmalı, müəllim-şagird münasibətləri tələbkarlıq və çalışqanlıq prinsipləri üzərində qurulmalıdır”.





Ali Məclisin Sədri demişdir: “Bu gün ölkəmizdə təhsilə göstərilən qayğı, bu sahədə həyata keçirilən islahatlar nümunə gücündədir. Şəhər və rayon mərkəzləri ilə yanaşı, ən ucqar dağ kəndlərində də müasir məktəb binalarının tikilməsi bunu bir daha təsdiq edir. Məktəb binalarının müasir səviyyədə qurulması müstəqil dövlətimizin qarşıya qoyduğu başlıca tələblərdəndir. Bu məqsədlə ölkəmizdə müvafiq dövlət proqramları həyata keçirilir. Görülən bu işlər bir tərəfdən gənclərin hərtərəfli təhsil almasına xidmət edirsə, digər tərəfdən onların xarici ölkələrdə təhsillərini davam etdirməsi, dünya təhsil sisteminə inteqrasiya baxımından da mühüm əhəmiyyət daşıyır. Ona görə də məktəblərdə şagirdlərə informasiya texnologiyalarının əsasları dərindən öyrədilməli, xarici dillərin tədrisi diqqət mərkəzində saxlanılmalıdır”.

Qeyd olunmuşdur ki, Axura kənd tam orta məktəbində lazımi şərait yaradılmışdır. Məktəbdə zəngin fonda malik olan kitabxana, internetə çıxışı olan kompüterlər, laboratoriyalar, gənclərin sağlam böyüməsi üçün idman zalı və digər tədris avadanlıqları vardır. Bu da şagirdlərin təhsilli və sağlam böyüməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: “Hər bir millətin tərəqqisi təhsildən, təhsilin tərəqqisi isə pedaqoji kollektivlərin fəaliyyətindən asılıdır. Təhsil sahəsində qazanılan nailiyyətlər, ilk növbədə, müəllimlərin işə məsuliyyətlə yanaşması nəticəsində mümkün olur. Axura kənd tam orta məktəbində də müəllim tələbkarlığının və şagird çalışqanlığının tələb olunan səviyyədə olması uğurlu nailiyyətlərin qazanılmasına səbəb olmuşdur”.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkürünü bildirmiş, onlara gələcək təhsildə uğurlar arzulamışdır.

Üç mərtəbədən ibarət məktəb binası 234 şagird yerlikdir. Sinif otaqları və ayrı-ayrı fənn kabinələri lazımi tədris avadanlıqları ilə təchiz olunmuşdur. Məktəbdə kompüter otağı, 3 elektron lövhəli sinif, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat və müəllimlər otaqları, kitabxana və idman zalı vardır.

Məktəbdə kitabxananın fəaliyyət göstərməsi ayrı-ayrı fənlər üzrə biliklərin möhkəmləndirilməsi ilə yanaşı, şagirdlərin dünyagörüşünün artmasına, mütaliə vərdişlərinin formalaşdırılmasına da kömək edəcəkdir. Hazırda kitabxananın fondunda 1700-dən çox dərslik və 2000-dən çox bədii ədəbiyyat vardır.

Ali Məclisin Sədri ayrı-ayrı sinif otaqlarında olmuş, məktəbdə tədrisin təşkili ilə maraqlanmışdır.

Axura kənd tam orta məktəbində 20 kompüter dəsti quraşdırılmış, onların hər biri internetə qoşulmuşdur. Elektron lövhəli siniflər isə məktəbdə distant təhsilin tətbiqinə şərait yaradır. Baxış zamanı 95 ümumtəhsil məktəbi ilə Naxçıvan Dövlət Xalça Muzeyi arasında videobağlantı vasitəsi ilə “Naxçıvan qrupuna daxil olan xalçalar” mövzusunda dərs tədris olunmuşdur.

Məktəbin kimya-biologiya və fizika laboratoriyalarının hər biri müasir tədris vasitələri ilə təmin edilmiş, dərslərə uyğun təcrübi məşğələlərin keçilməsi üçün hər cür şərait yaradılmışdır.

Ali Məclisin Sədrinə məktəbin nailiyyətləri haqqında məlumat verilmişdir. Qeyd olunmuşdur ki, təhsilə göstərilən diqqət və qayğı bu məktəbin də uğurlarının ilbəil artmasına səbəb olmuşdur. Ötən tədris ilində məktəbi bitirən 10 məzundan 6-sı tələbə adını qazanmış, onlardan 2-si 500-700 intervalında bal toplamışdır. Həmçinin şagirdlərdən 1-i 9-cu sinif bazasından orta ixtisas məktəbinə, 1-i isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur.



*Ardı 2-ci səhifədə*

Təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biri də bədən tərbiyəsi və idman dərslərini düzgün təşkil etməklə şagirdlərin fiziki sağlamlığını qorumaqdır. Bu məqsədlə Axura kənd tam orta məktəbində geniş idman zalı yaradılmış, həyətdə açıq idman qurğuları quraşdırılmışdır.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, müasir məktəb binasının istifadəyə verilməsi pedaqoji kollektiv qarşısında mühüm vəzifələr qoyur. Məktəbdə tədrisin müasir metodlarla qurulması təmin edilməli, tələbkarlıq artırılmalı, müəllimlər öz hazırlıq səviyyələrini daim yüksəltməlidirlər. Xalqın gələcəyi təhsilli və vətənpərvər gənclərdən asılıdır. Bu gəncliyin hazırlanması isə müəllimlərin üzərinə düşən vəzifələrdir. Ona görə də kollektiv məktəbdə tədrisin səviyyəsinin yüksəldilməsini bundan sonra da diqqət mərkəzində saxlamalı, nailiyyətlər artırılmalı, gələcəyimizin təminatçısı olan gənclər yetişdirilməlidir.

Müəllim Zəhra Novruzova dağ və sərhəd kəndi olan Axurada təhsilin inkişafına göstərilən qayğını, müasir məktəb binasının istifadəyə verilməsini dövlətimizin və xalqımızın gələcəyinə hesablanmış tədbirlərin tərkib hissəsi kimi dəyərləndirmiş, yaradılan şəraitə əməli işləri ilə cavab verəcəklərini bildirmişdir.

Məktəbin həyətində də abadlıq işləri görülmüş, ağac və gül kolları əkilmişdir.

## Kənddə yeni xidmət mərkəzi fəaliyyətə başlamışdır






Axura kəndində müasir xidmət mərkəzinin yaradılması sakinlərin məişət şəraitinin yaxşılaşdırılmasına imkan verəcəkdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını etmiş, yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, Axura kənd xidmət mərkəzinin fəaliyyətə başlaması ilə 5 nəfər işlə təmin olunmuşdur. Burada ərzaq və sənaye malları mağazaları, eləcə də ət satışı yeri fəaliyyət göstərir. Həmçinin mərkəzdə bərbərxana və qadın gözəllik salonu da istifadəyə verilmişdir.

Mərkəzlə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri Axura kəndinin muxtar respublikanın abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: "Axura kəndi sərhəd yaşayış məntəqəsidir. Bu kəndin zəhmətkeş insanları vardır. Kənddə fərdi təsərrüfatlar inkişaf etdirilir. Aparılan quruculuq işləri sakinlərin kənddə rahat yaşamasına, onların problemlərinin vaxtlı-vaxtında həll olunmasına imkan verəcəkdir. Kənddə dövlət qurumlarının, xidmət təşkilatlarının fəaliyyəti yaxşılaşdırılmış, mənzillər telefonlaşdırılmış, elektrik enerjisi, təbii qazla tam təmin olunmuşdur. Bütün bunlara dövlətimizin iqtisadi inkişafı və sabitlik nəticəsində nail olunmuşdur. Sakinlər də yaradılan şəraitdən səmərəli istifadə etməli, kəndin inkişafına çalışmalı, tikilənlər, qurulanlar qorunmalıdır".

Kənd ziyalısı Məmmədəli Orucov sakinlər adından minnətdarlıq edərək demişdir ki, dağ kəndində aparılan bu cür quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Son illər Axura kəndində əhalinin rahat və firavan yaşayışı təmin olunmuşdur. Kəndə içməli su çəkilmiş, müasir yol salınmış, əhalinin məişət şəraiti yaxşılaşdırılmışdır. Görülən işlər Axuranı müasir yaşayış məntəqəsinə çevirmişdir. Artıq bu dağ kəndində yaşamaq da, işləmək də hər bir sakində qürur doğurur, onların torpağa bağlılığını artırır. Sakinlər bundan sonra da ümummilli liderimizin siyasətinə sadiq qalacaq, müstəqil dövlətimizin daha da inkişaf etdirilməsində səylərini əsirgəməyəcəklər.

* * *

Quruculuq tədbirləri çərçivəsində Axura kənd avtomobil yolunun 2,7 kilometrinə yeni asfalt örtük salınmış, əsaslı təmir işləri aparılmışdır. Yol boyu 266 metr uzunluğunda beton kanal çəkilmiş, 2 körpü əsaslı, 1 körpü isə cari təmir olunmuş, 16 su keçidi tikilmişdir. Kəndin enerji təchizatı da təkmilləşdirilmiş, qaz və elektrik xətləri yenilənmiş, müasir rabitə sistemi qurulmuş, fiber-optik xətt çəkilmişdir.

## Sosial qayğıya ehtiyacı olan Axura kənd sakini üçün fərdi ev tikilmişdir





Muxtar respublikamızda qayğıya ehtiyacı olan vətəndaşlarımıza göstərilən xidmətlərin səviyyəsi ilbəil yüksəldilir, onların sosial-məişət şəraiti yaxşılaşdırılır. Kəndlərdə aparılan quruculuq işləri zamanı da bu məsələ diqqət mərkəzində saxlanılır.

Bu istiqamətdə görülən işlərin davamı olaraq, Şərur rayonunun Axura kənd sakini, ahıl vətəndaş Quba Abbasova üçün fərdi yaşayış evi tikilmişdir.

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov fərdi yaşayış evində yaradılan şəraitlə tanış olmuş, sakin Quba Abbasovanın səhhəti və yaşayışı ilə maraqlanmış, ona cansağlığı və firavan həyat arzulamışdır.

Quba Abbasova göstərilən qayğıya görə minnətdarlıq etmişdir.

İki otaqdan və mətbəxdən ibarət olan mənzildə lazımi kommunal şərait yaradılmış, məişət avadanlıqları qoyulmuşdur. Fərdi evin həyəti də abadlaşdırılmış, içməli su xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Dövlət müstəqilliyinin 23-cü ildönümü qeyd olunub

Dünən Naxçıvan Qarnizonunun Zabitlər Evində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 23-cü ildönümü münasibətilə tədbir keçirilib. Tədbiri Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik-leytenant Mirqiyas Rüstəmov açaraq bildirib ki, Azərbaycan xalqı 23 il bundan əvvəl yaranmış gərgin tarixi vəziyyətdə öz müqəddəratını həll edərək dövlət müstəqilliyini bərpa edib. Ancaq bu müstəqilliyi qoruyub-saxlamaq heç də asan olmayıb. 1993-cü ilin ikinci yarısınadək öz havadarlarına arxalanaraq torpaqlarımıza göz dikən erməni quldurlarının hərbi təcavüzü, ictimai-siyasi vəziyyət və iqtisadi problemlərin gündən-günə artması qazanılmış müstəqilliyin yenidən itirilməsi təhlükəsini yaratmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbilə



yenidən siyasi hakimiyyətə qayıtması bu təhlükəni aradan qaldırdı. Bununla da ölkəmizdə siyasi hərc-mərcliyə, anarxiyaya, erməni işğalına son qoyuldu. Cəbhədə atəşkəs elan olunaraq vahid komandanlıq altında milli ordu quruculuğuna start verildi. Tarix üçün çox qısa bir dövrdə Azərbaycan güclü dövlətə, Silahlı Qüvvələrimiz isə regionun ən qüdrətli ordusuna çevrildi. Artıq Azərbaycan Silahlı Qüvvələri elə bir gücə malikdir ki, hər an işğal altında olan torpaqlarımızı azad etməyə hazırdır.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli bildirib ki, bu gün ordumuza yüksək dövlət qayğısı göstərilir. Ordumuzun gündən-günə inkişaf etməsi, əsgərlərimizin yüksək döyüş hazırlığı hər birimizi sevindirir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda xalqla ordu arasında qırılmaz bağlar mövcuddur.

Tədbirin bədii hissəsində Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" İnstrumental Ansamblı solistlərinin çıxışı olub.

Naxçıvan Dövlət Texniki Kollecində Müstəqillik Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə kollecin direktor əvəzi Asəf Ruşanov məruzə ilə çıxış etmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyimizin bərpasında və möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışan məruzəçi bildirmişdir ki, məhz ümummilli liderimizin titanik fəaliyyəti nəticəsində Azərbaycanın müstəqilliyi əbədi, dönməz xarakter almış, ölkəmiz bugünkü inkişafa, tərəqqiyə nail olmuşdur.

Qeyd edilmişdir ki, ulu öndər Heydər Əliyevin irsi, ideyaları, siyasi kursu bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən yeni şəraitin tələblərinə uyğun surətdə yaradıcılıqla inkişaf etdirilir və müstəqil dövlətimizə böyük uğurlar gətirir. Bu gün qlobal uğurları ilə bütün dünyanı heyran qoyan Azərbaycanın inkişafı ona regionun lider dövləti statusu qazandırmışdır. Bütün bunlar isə müstəqilliyimizi daha da möhkəmləndirir. Hər birimiz xalqımızın tarixi nailiyyəti olan müstəqilliyi göz bəbəyi kimi qorumalı, istiqlal yolumuzun əbədiliyi naminə dövlətçiliyimizi, ölkədəki daxili sabitliyi daha da möhkəmləndirmək üçün mühüm səylər göstərməli, əsl vətəndaş fəallığı və təəssübkeşliyi nümayiş etdirməliyik.

Sonra məruzə ətrafında kollecin müəllimi Süreyya Ələkbərli, tələbə Səkinə Haşımlı və başqaları çıxış etmişlər.

Tədbirin sonunda kollecin tələbələrinin ifasında kompozisiya nümayiş etdirilmişdir.

**Xəbərlər şöbəsi**

# Müstəqillik xalqımızın əldə etdiyi ən mühüm tarixi nailiyyətdir

***Hər bir xalqın və millətin azadlıq uğrunda mücadiləsinin məntiqi nəticəsi, son ünvanı müstəqillikdir. Müstəqillik ən mühüm tarixi nailiyyətdir. Azərbaycanın dövlət müstəqilliyi uzun əsrlər boyu cərəyan etmiş ictimai-siyasi proseslərin nəticəsi olaraq, xalqımızın mübarizliyi və qətiyyəti sayəsində qazanılmışdır. Xalqımız daim öz müstəqilliyini və suverenliyini təmin etməyə çalışmış, tarixin müəyyən dövrlərində buna nail olaraq zəngin dövlətçilik ənənələri yaratmışdır.***

Azərbaycan nadir ölkələrdəndir ki, bir əsrdə iki dəfə dövlət müstəqilliyini elan etməyi bacarmışdır. 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsi qəbul edərək tam dövlət hakimiyyətinə malik Azərbaycan Respublikasının yarandığını bəyan etmişdir. Müsəlman Şərqinin ilk cümhuriyyəti bir çox xarici dövlətlər tərəfindən tanınmış, müstəqil dövlətin təsisatları yaradılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti, birinci növbədə, xalqımızın tarixin ən qədim qatlarından gələn dövlətçilik mədəniyyətinin davamı kimi diqqəti cəlb edir. Bu respublika cəmi 23 ay yaşasa da, milli dövlətçilik atributlarının qəbul edilməsi, dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahəsində atılan addımlar müstəqil dövlətçilik tariximizdə mühüm əhəmiyyətə malikdir.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəmizdə sosialist ideologiyası əsasında dövlət quruculuğu başlanmış, Azərbaycan SSRİ-nin tərkibinə daxil olmaqla öz müstəqilliyini itirmişdir. Həmin tarixdən 1991-ci ilədək sosialist sistemi şəraitində fəaliyyət göstərən bu respublika bütün əlamətlərinə görə milli və ya tam müstəqil dövlət qurumu kimi səciyyələndirilməsə də, ölkəmizdə sosial-iqtisadi həyatın inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilmiş, Azərbaycan müstəqilliyə hazırlanmışdır. Ulu öndər Heydər Əliyev Sovet Azərbaycanının bu tarixi missiyasından bəhs edərək demişdir: ***"Azərbaycan xalqı kommunist rejimində, ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan, şübhəsiz ki, müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdir. Azərbaycan xalqı həmin dövrdə mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda onun qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşamışdır".***

Siyasi iradə olmadan milli azadlıq hissləri özlüyündə heç bir nəticə verə bilməz. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanda müstəqil dövlət quruculuğuna başlanmışdır. Azərbaycançılıq ideologiyası əsasında xalqın milli-mənəvi potensialı səfərbərliyə alınmış, gələcək müstəqil dövlət üçün möhkəm iqtisadi baza yaradılmışdır. O dövrün Azərbaycanı cəmi 14 il ərzində əsl inkişafa qovuşmuşdur. Bu gün tam əminliklə demək olar ki, 1969-1982-ci illərdə görülən tədbirlər ona görə taleyüklü xarakter daşıyırdı ki, onlar zamanı xeyli qabaqlayaraq ölkənin gələcəyini, müstəqil dövlətçilik dövrünü nəzərdə tuturdu. Bu gün müstəqil Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına inteqrasiyası o illərdə ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş güclü xalq təsərrüfatı potensialına əsaslanır.

23 il bundan əvvəl, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Müstəqillik haqqında Konstitusiya Aktını qəbul edərək dövlət müstəqilliyini və suverenliyini bərpa etmişdir. Həmin gün siyasi tariximizə "Müstəqillik Günü" kimi daxil olmuşdur. 1991-ci il oktyabr ayının 19-da görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasına göndərdiyi teleqramda deyilirdi: ***"Biz bu gün xoşbəxtik ki, nəhayət, Azərbaycan Respublikası Ali hakimiyyət orqanı tərəfindən milli azadlıq niyyətlərimizin həyata keçirilməsi üçün ilk addım atılıbdır. Azərbaycan xalqı tam əmin ola bilər ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər".***

Ötən əsrin əvvəllərində – müstəqilliyin elan edildiyi 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayınadək olan dövrdə dövlət müstəqilliyi nəinki möhkəmləndirilmiş, əksinə, Azərbaycan qısa müddətdə bu müstəqilliyi əldən vermək təhlükəsi ilə üz-üzə qalmışdı.



Tarix dəfələrlə sübut edib ki, əvəzsiz milli sərvət olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Dövlət müstəqilliyi o yerdə davamlı olur ki, birincisi, xalq bu müstəqilliyin qorunması üçün siyasi iradə göstərsin; ikincisi, xalqın milli iradəsi vahid lider ətrafında birləşsin. Azərbaycan xalqının bəxti onda gətirmişdir ki, müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda ulu öndər Heydər Əliyev böyük xilaskarlıq missiyasını həyata keçirmişdir. 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb siyasi fəaliyyət göstərən xalqımızın böyük oğlu həqiqi dövlət müstəqilliyinin bünövrəsini bu torpaqda qoymuş, onun rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası xalqımızın suveren hüquqlarının və dövlət müstəqilliyinin bərpa edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilmişdi.

Ümummilli liderimizin rəhbərliyi ilə keçirilən muxtar respublika Ali Məclisinin sessiyalarında dövlət müstəqilliyinin bərpası ilə bağlı tarixi qərarlar qəbul olunmuş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı müstəqillik rəmzi kimi Naxçıvan parlamentində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılmış, ali qanunverici və icra hakimiyyəti orqanlarının adları dəyişdirilmiş, sovet qoşun hissələri Naxçıvandan çıxarılmış, onların bazasında müstəqilliyin vacib elementi olan ilk milli sərhəd dəstəsi və milli ordu hissələri yaradılmışdı. Muxtar respublika parlamentinin qərarları ilə Kommunist Partiyasının fəaliyyəti dayandırılmış, kolxoz və sovxozlar ləğv edilmiş, aqrar islahatlar keçirilmiş, yeni istehsal münasibətlərinə əsaslanan təsərrüfatçılıq prinsiplərinin təməli qoyulmuşdu. O dövrdə Azərbaycana rəhbərlik edənlər Sovet İttifaqının qorunub saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də keçirilən referendumda Azərbaycanın iştirakı barədə qərar vermişdilərsə, ulu öndər Heydər Əliyevin tövsiyəsi ilə Naxçıvan Muxtar Respublikası bu qondarma referendumdan imtina etmiş, SSRİ-nin yenidən bərpasına yönəldilən cəhdlər muxtar respublika ərazisində qətiyyətlə aradan qaldırılmış, müvafiq qərarların qəbul edilməsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Ali Sovetindən də xahiş edilmişdi.

Ölkə Prezidenti cənab İlham Əliyev ötən əsrin 90-cı illərində Naxçıvan Muxtar Respublikasında həyata keçirilən tədbirləri dövlət müstəqilliyi üçün mühüm şərt kimi qiymətləndirərək demişdir: ***"1990-cı illərdə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o sessiyada Azərbaycanın üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi".***

1993-cü ilin yayında Azərbaycan öz dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə Bakıya döndü. Bu dönüş tarixi zərurət, xalq istəyinin ifadəsi idi. O böyük şəxsiyyət gəlişi ilə Azərbaycanı fəlakətdən qurtardı, insanlarda inam yaratdı. Həmin illərdə üzünü Azərbaycan dövlətçiliyini dağıtmaq istəyənlərə tutan ulu öndər deyirdi: ***"Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".***

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin, bazar münasibətlərinə əsaslanan yenitipli iqtisadiyyatın nəzəri-konseptual inkişaf konsepsiyasını yaratmış, xalqın istək və arzularını onun dövlətçilik ənənələri, milli maraq və mənafeləri üzərində kökləyə, bu qüdrətli və təbii qaynaqdan düzgün istifadə etməklə dilindən, dinindən və milliyyətindən asılı olmayaraq, Azərbaycan ərazisində yaşayan bütün insanların həyati maraqlarını vahid məqsəd – dövlətçilik ideyası ətrafında birləşdirə bilmişdir.

***"Mən həyatımdan keçərəm, ancaq Azərbaycanın müstəqilliyindən keçmərəm"***, – deyən ümummilli liderimiz daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına, gecəli-gündüzlü fədakar əməyi hesabına Azərbaycanı müstəqil dövlətə çevirmiş, dövlət müstəqilliyimizi daimi və əbədi etmişdir. Bütün ömrü boyu həyatının mənası bildiyi Azərbaycanı müstəqil dövlətə çevirmək ulu öndərimizin ən böyük arzusu, onun məhsuldar siyasi fəaliyyətinin ən mühüm yekunu və məntiqi nəticəsidir. O, bu yola Azərbaycanda siyasi fəaliyyətinin birinci dövründə, 1969-cu ildən başlamış və bu şərəfli missiyanı ölkəmizdə ali hakimiyyətinin ikinci dövründə uğurla başa çatdırmış, müstəqilliyi Azərbaycanın bugünkü və gələcək nəsillərinə ərməğan etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Əgər xalqımızın müstəqillik hərəkatı cismani varlıq kimi götürülsə, ümummilli liderimizin siyasi fəaliyyəti onun hərəkətverici qüvvəsi və mənəvi ruhudur. Bu ruh, mənəvi qüvvə Azərbaycanı sonu görünməyən bəlalardan qurtarmış, xalqın siyasi iradəsini vahid ideya – Azərbaycançılıq ideologiyası uğrunda mübarizəyə yönəltmişdir".***

İqtisadi cəhətdən müstəqil olmayan dövlət siyasi müstəqilliyini təmin edə, onu qoruyub saxlaya bilməz. 1993-cü ildən başlanan inkişaf və tərəqqi dövrü Heydər Əliyev siyasi xəttinin real iş və əmələ əsaslandığını bir daha təsdiq edir. Xalqımızın böyük oğlu Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması, müvafiq təkmil qanunvericilik bazasının yaradılması və hüquqi vasitələrin işə salınması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını reallaşdırmışdır. Qeyri-neft bölməsi sürətlə inkişaf etməyə başlamış, özəlləşdirmə proqramı həyata keçirilmişdir. Ümumdünya iqtisadi məkanına qətiyyətlə inteqrasiya edən ölkə xammal ixracatçısından istehsal sənayesini qüdrətləndirən və əmtəə ixrac edən əlverişli tərəfdaşa çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik prinsipləri zaman keçdikcə daha da möhkəmlənir. Çünki bu iş, bu siyasi kurs müasir şəraitdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi altında ötən 11 ildə həyata keçirilən tədbirlər, daxili və xarici siyasət sahəsində əldə olunmuş nailiyyətlər dövlət müstəqilliyimizin daha da möhkəmlənməsinə və davamlı xarakter almasına xidmət etmişdir. Bu gün ölkəmizdə hüquqi-demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən islahatlar uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə bir sıra uğurlu infrastruktur layihələri gerçəkləşdirilmiş, bir milyondan artıq yeni iş yeri açılmış, büdcəmiz, iqtisadiyyat, sənaye istehsalı bir neçə dəfə artmış, yoxsulluq azalmış, nəticədə, maaşlar, pensiyalar dəfələrlə qaldırılmış, əhalinin sosial rifah halı xeyli dərəcədə yaxşılaşdırılmış, müstəqilliyin qarantı olan güclü ordu yaradılmışdır. Qazanılan bu cür siyasi və iqtisadi uğurlar xalqımızın həyatında özünü göstərmiş, onların doğma Vətənə bağlılıqlarını, birlik və həmrəyliyini daha da artırmışdır.

Bu gün öz dövlət müstəqilliyini möhkəmləndirən Azərbaycan sürətli inkişaf yolundadır. Sosialyönümlü siyasət yeridən ölkə Prezidenti ötən illər ərzində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlarla daim xalqın mənafeyindən çıxış etdiyini, verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini sübut etmişdir. O, ictimai həyatın bütün sahələrində yeni dövrün tələblərinə uyğun islahatların aparılması, qeyri-neft sektorunun Ümumi Daxili Məhsuldakı çəkisinin artırılması, regionların tarazlı inkişafı, yeni istehsal müəssisələrinin açılması, ən başlıcası, işsizlik probleminin aradan qaldırılması istiqamətində effektiv nəticələrə hesablanmış cəsarətli addımlar atmışdır. Bunun nəticəsidir ki, bu gün müstəqil Azərbaycanın səsi nüfuzlu beynəlxalq kürsülərdən gəlir, balanslaşdırılmış xarici siyasət real bəhrəsini verir, ölkə Avropanın enerji təhlükəsizliyi sistemində həlledici rola malikdir. İqtisadi qüdrətimiz Azərbaycanı regionda əsas söz sahibinə çevirmişdir.

Azərbaycan 23 ildir, müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Bu inkişaf ölkəmizin bütün guşələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. Müstəqillik dövründə muxtar respublikamızın keçdiyi yolu xarakterizə etmək, inkişaf dinamikasını görmək üçün real həyata baxmaq kifayətdir. Muxtariyyətinin son 19 ilini öz tarixinə tərəqqi və dinamik inkişaf dövrü kimi yazan qədim Naxçıvan dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə dəyərli töhfələr verməkdədir. Artıq ümummilli liderimiz tərəfindən müstəqilliyin əsaslarının işlənib hazırlandığı bu torpaq müstəqilliyin bəxş etdiyi inkişaf yolunda inamla irəliləyir.

*Azərbaycan xalqı müstəqillik bayramını hər il böyük təntənə ilə qeyd edir. Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, dövlət müstəqilliyimizi göz bəbəyi kimi qorusun. Çünki müstəqilliyimiz bizim ən dəyərli milli sərvətimizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Bugünkü Azərbaycan Azərbaycan xalqının zəhmətinin, istedadının nəticəsidir. Bu ölkəni biz qurmuşuq, Azərbaycan xalqı qurubdur. Hər bir vətəndaş gündəlik işində elə etməlidir ki, öz fəaliyyəti ilə bu müstəqilliyi gücləndirsin, əbədi, dönməz etsin və bundan sonra əsrlər boyu Azərbaycan xalqı azad, müstəqil yaşasın".***

**"Şərq qapısı"**


Biləv Su Elektrik Stansiyası

20 oktyabr energetika işçilərinin peşə bayramıdır

# Enerji təhlükəsizliyi dinamik iqtisadi inkişafın əsas şərtidir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 20-si ölkəmizdə energetika sahəsində çalışanların peşə bayramı günü kimi qeyd olunur.*

Azərbaycanda iqtisadiyyatın bütün sahələrində olduğu kimi, elektroenergetikanın inkişafı da ümummilli liderimizin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsi, ölkədə enerji təhlükəsizliyinin təmin olunması istiqamətində gərgin fəaliyyət göstərmişdir. O vaxta qədər ölkədə bütün elektrik stansiyalarının ümumi gücü 2200 meqavat təşkil edirdi və elektrik enerjisi təminatının tam ödənilməsində problemlər mövcud idi. Ümummilli liderin səyləri və təşkilatçılığı sayəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tikintisinə başlanıldı və hər il bir bloku istifadəyə verilən bu stansiya sayəsində Azərbaycan enerji sistemi bölgənin aparıcı sisteminə çevrildi. Həmin dövrdə İran İslam Respublikası ilə birgə tikilən 22 meqavatlıq Araz SES, 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişi xətləri, yeni transformator yarımstansiyaları istismara verilmişdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkə iqtisadiyyatının bütün sahələri, o cümlədən elektrik enerjisi üzrə proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də böyük nailiyyətlərin əldə olunmasına geniş imkanlar yaratmışdır.

Müstəqillik əldə olunduqdan sonra ölkəmizdə, eləcə də muxtar respublikada enerji təminatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndərin apardığı danışıqlar nəticəsində 1993-cü ildə İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisi nəqlinə başlanılmışdır. Bu dövrdən başlayaraq muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılmış, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilmiş, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısını almaq və enerji təchizatının etibarlılığını yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə Prezident İlham Əliyev 2005-ci il mayın 2-də “Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalamışdır. Sərəncamın icrası muxtar respublikada da uğurla həyata keçirilmişdir. Belə ki, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla işləmə rejiminə keçməsi təmin olunmuş, 220 kilovoltluq Babək yarımstansiyasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Sərəncama əsasən, həmin il ümumi tutumu 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası tikilib istismara verilmiş və sonrakı mərhələlərdə bu istiqamətdə kompleks işlər davam etdirilmişdir. Nəticədə, bu gün muxtar respublikanın enerji təchizatı tamamilə daxili istehsal hesabına ödənilir.

Elektrik stansiyalarının tikilib istifadəyə verilməsi enerji təhlükəsizliyinin təmin olunmasında son dərəcə əhəmiyyətli rola malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın elektrik enerjisinin daxili imkanlar hesabına ödənilməsinin strateji əhəmiyyət kəsb etdiyini bildirərək demişdir: ***“Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir”.***

Muxtar respublikanın mövcud hidroenerji potensialından səmərəli istifadə olunmaqla ekoloji və iqtisadi cəhətdən daha səmərəli olan su elektrik stansiyalarının tikilib istifadəyə verilməsi də elektrik enerjisi təchizatında mühüm əhəmiyyətə malikdir. 2006-cı ilin dekabrında Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə su elektrik stansiyası, 2010-cu ilin oktyabrında isə Gilançay üzərində 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyası istismara verilmişdir. Bu il aprel ayının 7-də Şərur rayonu ərazisində 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları fəaliyyətə başlamışdır. Muxtar respublikada bu istiqamətdə işlər davam etdirilir. Hazırda Ordubad rayonu ərazisində 36 meqavat gücündə yeni derivasiyatipli su elektrik stansiyasının tikintisi davam etdirilir. Bu gün Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin balansında olan 7 elektrik stansiyasından 6-sı müstəqillik illərində istismara verilmişdir. Enerji təhlükəsizliyini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanın enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır”.***


Arpaçay Su Elektrik Stansiyası

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması məqsədilə yeni transformator yarımstansiyaları tikilir, mövcud olanlar yenidən qurulur. Son illər “Xalxal”, “Koroğlu”, “Xalçaçılıq”, “Şərur”, “Naxçıvan” və “Ordubad” transformator yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu il isə “Araz” və “Babək” transformator yarımstansiyalarında yenidənqurma və təmir işləri aparılır. 2014-cü ilin ötən 9 ayında muxtar respublikanın şəhər və kəndlərində 26 ədəd yeni transformator yarımstansiyası qoyulmuş, 60 kilometr uzunluğunda yeni 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 20 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri yeraltı kabellərlə əvəz edilmişdir. Bundan əlavə, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində də ardıcıl tədbirlər görülür.

Hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payızqış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirələrdə qarşıya konkret vəzifələr qoyulur. Müşavirələrdə verilən tapşırıqların icrası istiqamətində görülən işlər soyuq qış günlərində istehlakçıların dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə etibarlı təminatına şərait yaradır, enerjinin verilməsində kəsinti hallarını minimuma endirir.

Elektrik enerjisindən qənaətlə istifadə olunması, israfçılığa yol verilməməsi də enerji təminatı baxımından vacib məsələdir. Ötən dövr ərzində bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilmiş, aparılan reydlər zamanı elektrik verilişi xətlərinə qanunsuz müdaxilələr aşkar olunaraq qarşısı alınmışdır. Həmçinin elektrik enerjisi haqlarının rəqəmsal elektron sayğacların göstərişləri əsasında ödənilməsi təmin edilmişdir. Sakinlərlə elektrik enerjisindən qənaətlə və qanun çərçivəsində istifadə olunması qaydaları barədə mütəmadi maarifləndirici söhbətlər aparılır, enerji itkisinin baş verməməsi nəzarətdə saxlanılır.

Muxtar respublikada enerji təminatçıları olan energetiklərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Son illər 11 energetik “Tərəqqi” medalı ilə təltif edilmiş, 1 nəfərə “Azərbaycan Respublikasının əməkdar mühəndisi”, 2 əməkdaşa isə “Naxçıvan Muxtar Respublikasının əməkdar mühəndisi” fəxri adları verilmişdir. Bu sahədə çalışanların rifah halının yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılaraq əməkhaqları artırılmış, iş şəraitinin yaxşılaşdırılması məqsədilə yeni inzibati binalar tikilmiş, xidməti avtomobillər verilmişdir.

Muxtar respublikanın energetika sahəsində ixtisaslı kadrların hazırlanması da diqqət mərkəzində saxlanılır. Bu məqsədlə ali və orta ixtisas təhsili müəssisələrində, peşə məktəblərində müvafiq ixtisaslar üzrə mütəxəssislər hazırlanır. Kadr hazırlığının düzgün təşkili nəticəsində bu gün elektrik stansiyalarının idarə olunması, istifadəyə verilən yeni yarımstansiyaların qurulması yerli mütəxəssislər tərəfindən həyata keçirilir.

*İnanırıq ki, peşə bayramlarını qeyd edən muxtar respublika energetikləri bundan sonra da qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək, istifadəçilərin davamlı və keyfiyyətli elektrik enerjisi ilə təminatını diqqət mərkəzində saxlayacaqlar.*

**“Şərq qapısı”**

*Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 18 Oktyabr – Müstəqillik Gününə həsr olunmuş karate-do üzrə Naxçıvan şəhər birinciliyi keçirilib.*

## Karate-do üzrə şəhər birinciliyi

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkil etdiyi yarışda 50-yə yaxın idmançı mübarizə aparıb. Birinciliyin açılışında çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov muxtar respublikada idmana və idmançılara göstərilən dövlət qayğısından danışıb. Sonra Karate-do Federasiyasının sədr müavini Nəriman Quliyev çıxış edərək yarış iştirakçılarına yarışın qaydaları haqqında məlumat verib, onlara uğurlar arzulayıb.

5 yaş qrupunda keçirilən birincilikdə müvafiq olaraq Fəxrəddin Dünyamalıyev (8-9 yaş), Rza Kərimov (10-11 yaş), Xəlil Əliyev (12-13 yaş), Nizami Binyətli (14-15 yaş) və Mirpaşa Kərimov (16-17 yaş) bütün rəqiblərini məğlub edərək qalib adını qazanıblar.

Sonda hər yaş qrupunda I,II,III yerləri tutan idmançılara təşkilatçıların diplom və qiymətli hədiyyələri təqdim olunub.

## Əlincə qalasına yürüş

Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə 18 Oktyabr –Müstəqillik Gününə həsr olunmuş “Əlincədən İlandağa” devizi ilə yürüş keçirilib. Heydər Əliyev adına Hərbi Lisey, “Qapıçıq”, “Salvartı”, “Dərələyəz”, “Əlincə”, “İlandağ”, “Şahbuz”, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kollecinin komandalarının mübarizə apardığı yürüşdə 120-dən çox idmançı iştirak edib.

Tədbirin açılışında çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov tədbirin mahiyyətindən danışıb. Sonra Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədov çıxış edərək bildirib ki, bu cür yarışları keçirməkdə məqsəd gəncləri asudə vaxtlarını səmərəli təşkil etmək, həmçinin onlara vətənpərvərlik hissini aşılamaqdır.

8 kilometr məsafədə zirvəyə yürüşdə həmidan güclü olduğunu sübut edən Heydər Əliyev adına Hərbi Liseyin kursantı Qəşəm Cəfərov qalib adını qazanıb. Elə digər iki pillənin sahibləri də kursantlar olublar: Məmməd İsmayılov ikinci, Əkbər Rəhimov isə üçüncü olub. Komanda yarışında da ilk pilləni Hərbi Liseyin komandası tutub. Digər iki pillədə isə Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kolleci qərarlaşıb.

Tədbirin sonunda Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Füzuli Hüseynli buradakı tarixi abidələr barədə idmançılara məlumat verib.

Sonda təşkilatçılar tərəfindən qaliblərə diplom və qiymətli hədiyyələr təqdim olunub.

## Vətənin müdafiəsinə hazıram

Sədərək rayonunda “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülük üzrə məktəblilər arasında rayon birinciliyi keçirilib. Sədərək Rayon Gənclər və İdman İdarəsi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sədərək Rayon Bölməsinin birgə təşkil etdiyi birincilikdə 20 məktəbli 4 komandanın heyətində mübarizə aparıb. Gərgin idman şəraitində keçən turnirin qalibi adını Sədərək kənd 1 nömrəli tam orta məktəbi qazanıb. Birincilikdə 2 nömrəli tam orta məktəb ikinci, Heydərabad qəsəbəsi tam orta məktəbi isə üçüncü olub.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

**Bildiriş**

“Dirçəliş Sosial və İqtisadi İnkişaf Mərkəzi” İctimai Birliyi fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 881